**Xalqımız Azərbaycan – Türkiyə qardaşlığının parlaq tarixi salnaməsi olan Qarfqaz İslam Ordusunun 104 il əvvəl Bakını düşmən qüvvələrdən azad edərək müstəqil dövlətimizin paytaxtına çevirməsinin növbəti ildönümünü böyük qədirbilənliklə yad etdiyi günlərdə bu misilsiz dostluğun daha bir səhifəsinin yazılmasına da şahidlik edir. Dost, qardaş Türkiyə dövləti və xalqı Qarabağ münaqişəsinin ilk günlərindən, 2 il əvvəl zəfərlə başa çatmış Vətən müharibəsinin ilk saatlarında olduğu kimi, bu günlər də ağrı-acısını yaşadığımız növbəti qanlı erməni hərbi təxribatının ilk dəqiqələrindən "Can Azərbaycanın yanındadır".**

# Qardaş Türkiyə hər zaman "Can Azərbaycan"la birlikdədir



Ermənistan silahlı qüvvələrinin sentyabrın 12-də gecə saatlarından başlayaraq Azərbaycan–Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi qanlı toqquşmanın baş verdiyi gündən Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmaqdadır.

Anadolu agentliyi, "TRT Haber", "Haber Global", "NTV" və başqa telekanallar, "Milliyet", "Hurriyet", "Takvim" və digər qəzetlər başda olmaqla, ölkənin aparıcı media qurumları işğalçı dövlətin hərbi təxribatları barədə geniş və əhatəli məlumatlar yaymaqdadır. Proses barədə rəsmi xəbər yayılandan dərhal sonra informasiyaları dünya ictimaiyyətinə operativ qaydada çatdırmağa başlayan Türkiyə mediası yazıb ki, qarşıdurmanın əsas səbəbi Azərbaycan Ordusunun mövqelərinin intensiv atəşə tutulması və genişmiqyaslı təxribatlardır.

Müxtəlif səpkili yazılarda və teleradio yayımlarında diqqətə çatdırılır ki, Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın gördüyü əks tədbirlər lokal xarakter daşıyır və hərbi hədəflərə qarşı yönəlib. Cavab tədbirləri kiçikmiqyaslı və hədəflənmiş xarakterli olmaqla, Azərbaycan sərhədlərinin təhlükəsizliyini təmin etmək və Ermənistanın təxribatlarına son qoymaq məqsədi daşıyır. Media qurumları bildirir ki, baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Təxribatdan dərhal sonra Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar arasında telefon danışığında hərbi təxribatın təfərrüatları, gedişi müzakirə olunub.

Azərbaycanlı nazir Ermənistan tərəfinin Ermənistanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatı nəticəsində baş verən döyüş toqquşması barədə həmkarını məlumatlandırıb və qarşı tərəfin bu addımlarının qarşısının qətiyyətlə alındığını bildirib.



DOLAR 18.23 | EURO 18.45 | ALTIN 1.721.64 | ETH/USDT 1.706.30 | BTC/USDT 22.170.00 | BIST 100 3.649.21

GÜNDEM DÜNYA EKONOMİ SPOR ANALİZ KÜLTÜR İNFOGRAFİK PODCAST VİDEO FOTOĞRAF

DÜNYA

**Azerbaycan-Ermenistan sınırında çatışmalar başladı**

Azerbaycan-Ermenistan sınırında iki ülke askeri birlikleri arasında yoğun çatışmalar başladı.

Ruslan Rehimov | 13.09.2022

Bakü

Azerbaycan Savunma Bakanlığı, Ermenistan ordusunun akşam saatlerinde sınırın Daşkesen, Kelbecer ve Laçın istikametlerinde geniş kapsamlı provokasyonda bulunduğunu duyurdu.

- Ermenistan Başbakanı Paşinyan, Rusya Devlet Başkanı Putin ile görüştü

Açıklamada, Ermenistan Silahlı Kuvvetlerinin sabotaj gruplarının farklı istikametlerde Azerbaycan ordusunun mevzileri arasındaki arazilere ve yollara mayın döşediği bildirildi. Bu durumu önlemek için Azerbaycan birliklerince alınan tedbirler neticesinde çatışmalar yaşandı.

Gündem

Hulusi Akar isə, öz növbəsində, Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə bağlı başsağlığı verib, yaralılara şəfa diləyib. O, Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu xüsusi qeyd edib. Telefon danışıqları zamanı hər iki qardaş ölkənin müdafiə naziri yaranmış vəziyyətlə bağlı geniş fikir mübadiləsi aparıblar.

Sonrakı günlərdə Türkiyənin Milli Müdafiə Nazirliyinin Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı yaydığı paylaşımda bildirilib: "Biz doğma qardaşıq, bir millət, iki dövlətik. Bakının düşmən işğalından azad olunmasının 104-cü ildönümünü qeyd etdiyimiz bu xüsusi gündə Ermənistanın təcavüzkar və təxribatçı hərəkətlərinə güclü şəkildə duruş gətirən qəhrəman Azərbaycan Ordusunu və nəcib Azərbaycan türk qardaşlarımızı salamlayırıq!".

Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu isə "Twitter" hesabında Azərbaycana dəstəyini belə ifadə edib:

**"Birdir hər bir halımız,**
**Sevincimiz-məlalımız.**
**Bayraqlarda ayparamız,**
**Azərbaycan–Türkiyə.**

Azərbaycan–Ermənistan sərhəd xəttində baş verən toqquşmalarda şəhid olan azərbaycanlı qardaşlarımıza Allah rəhmət eləsin! Can Azərbaycan xalqına başsağlığı verirəm.

Məqamları yüksək olsun, inşallah".

"Can Azərbaycan yalnız deyil, tək deyil! 85 milyonluq Türkiyə Can Azərbaycanın yanındadır və daim yanında olacaq. Təəssüflər olsun ki, erməni təcavüzü nəticəsində 50 şəhidimiz var. Ancaq Şanlı Azərbaycan Ordusu da şəhidlərimizin qanını yerdə qoymadı və döyüş meydanında onların qisasını aldı. Allahdan əziz şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm".

Bu sözləri Ermənistanın sərhəddə törətdiyi son təxribatları haqqında danışan Türkiyənin ölkəmizdəki keçmiş səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç daha sonra bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevə zəngi, Mövlud Çavuşoğlunun, Hulusi Akarın, İbrahim Kalının açıqlamaları Ankaranın mövqeyini açıq və qəti şəkildə göstərir:

– Ermənistanın Brüssel görüşündən 12 gün sonra belə bir cinayətə əl atması onların sülh müqaviləsini imzalama niyyətinin olmadığını göstərir. Sözügedən görüşdə sülh müqaviləsinin mətninin hazırlanması qərarı verildi və noyabr ayında da liderlərin görüşü zamanı sənədin yekun mətni razılaşdırılmalı idi. Paşinyanın 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, Putin, Makron və Blinkenə davamlı zəng etməsi, ağlaşma quraraq KTMT-nin iclasını çağırması onun düşdüyü acınacaqlı vəziyyəti göstərir. O, vəziyyətdən çıxmaq üçün dünyanın böyük gücləri qarşısında diz çökərək yalvarır.

Fransa həmişə Ermənistanı dəstəkləyib. İndi isə Makron İrəvanın istəyinə görə, BMT TŞ-nin iclasını çağırıb. BMT TŞ 1993-cü ildə Azərbaycanla bağlı 4 qətnamə qəbul etdi. 30 ilə yaxın müddətdə həmin qətnamələrin heç biri yerinə yetirilmədi. Makronun tələbi ilə çağırılacaq iclas da vaxt itkisindən başqa heç nəyə yaramayacaq. Əgər Paşinyan həqiqətən sülh istəyirdisə, Parisə yox, Ankara və Bakıya zəng etməli idi. Onda yaranan gərginlik daha tez bir zamanda ortadan qalxardı. Ancaq biz Paşinyanın niyə və nə üçün, kimlərə zəng etdiyini çox yaxşı bilirik.

Azərbaycanı təkləmək istəyənlər Ankara ilə Bakının qardaşlığının sarsılmaz olduğunu dərk etməlidirlər. Əlbəttə ki, bu birliyi qısqananlar, gözü götürməyənlər var. Bəziləri Türkiyənin güclənməsinə sevinir, bəziləri isə bundan narahatlıq keçirir. Türkiyə Vətən müharibəsində Azərbaycanı dəstəklədi, taxıl dəhlizinin açılmasına nail oldu və indi də Ukrayna müharibəsinin sülhlə bitməsi üçün çalışan yeganə ölkədir. Doğrudur, hazırkı məqamda ABŞ və Avropa Ukraynaya yardımlar edir, lakin onlar ilk başda Kiyevin zərbələrə nə qədər dözə biləcəyini gözlədilər. Fransanın da ölkəmizi qısqanmasının səbəbləri bunlardır.

Sabiq diplomat açıqlamasının sonunda qeyd edib ki, baş verən təxribatlar həm də Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddəki Zirvə Toplantısı çərçivəsində keçiriləcək Ərdoğan–Putin görüşünə zərbə vurmaq məqsədi daşıyır. Azərbaycan Silahlı Qüvvələri daha da güclənib və Ermənistanın bütün təxribatlarının cavabı ən ağır şəkildə veriləcək: "Paşinyana isə tövsiyəm odur ki, Makrona, Blinkenə, Putinə zəng edib çarəni başqa yerlərdə axtarmasın. Çarə nə Parisdə, nə Vaşinqtonda, nə də Moskvadadır. Çarə Ankara və Bakıdadır. Ona görə Paşinyan Ankara və Bakıya zəng etməlidir".

"Ermənistanın təxribatlarına və hücumlarına son qoyulmalıdır". Sentyabrın 13-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan–Ermənistan dövlət sərhədinin müxtəlif hissələrində atəşkəsi davamlı olaraq pozması ilə bağlı bu açıqlamasında Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömer Çelik bildirib: "Regionda sülh hər kəsin xeyrinə olacaq. Ermənistan Azərbaycanın hüquqlarına hörmətlə yanaşmalıdır. Eyni zamanda münaqişəni qızışdıran tərəflər də buna son verməlidir".

"Azərbaycan Silahlı Qüvvələri erməni təxribatına tutarlı cavab verəndə Nikol Paşinyan hər dəfə gah Putinə, gah da Makrona zəng edərək dəstək axtarır. Bu isə Ermənistanda dövlətin oturuşmadığını, başqa ölkələrdən asılı olduğunu göstərir". Bunu isə türkiyəli jurnalist Ceyhun Bozkurt Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlarını şərh edərkən deyib.

Ceyhun Bozkurt daha sonra vurğulayıb ki, Azərbaycan Qarabağ müharibəsindən sonra Ermənistana şans verib, normallaşma prosesinə qədəm qoyulub. Amma Ermənistan bunu dəyərləndirmək istəmir: "Ermənistan diasporun təsirindən çıxa bilmir. Ona görə də bu cür təxribatlara əl atır. Ancaq Azərbaycan bu təxribata tutarlı cavabı ilə qətiyyətli mövqe nümayiş etdirir.

"Ermənistan savaşı qazana bilməyəcəyini anlayır. Məqsəd bu cür təxribatlar törətməklə sülhə zərbə vurmaqdır". İstanbul Aydın Universitetinin müəllimi, türkiyəli siyasi şərhçi Alihan Limonçuoğlu Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlarını şərh edərkən bu sözlərin davamında bildirib: "Ermənistanın təxribatı Türkiyə ilə münasibətlərin normallaşmasına da zərbə vuracaq".

***Hazırladı: R.TAHİR, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 16 sentyabr.- S.9.